**“Azərbaycan Standartlaşdırma İnstitutu” publik hüquqi şəxsin İdarəetmə sistemlərinin sertifikatlaşdırılması orqanı**

**Təsdiq edirəm:**
**“Azərbaycan Standartlaşdırma İnstitutu” publik hüquqi şəxsin Təlim-tədris Mərkəzi İdarəetmə sistemlərinin və personalın sertifikatlaşdırılması orqanının direktoru**

**__________ S.Q.Əliyev**

**“29” “06” 2017-ci il**

# “Qərəzsizliyin idarə olunması” PROSEDURU

**İşlədi __________ H.R.Ağamalıyev**

**“29” “06” 2017-ci il**

**2017**

# 1. Ümumi müddəalar

Bu prosedur Sertifikatlaşdırma Orqanında (SO) sertifikatlaşdırma işlərini yerinə yetirilməsi prosesində zaman qərəzsizliyin təmin edilməsi və onun idarə olunması qaydalarını müəyyənləşdirir.

# 2. Normativ istinadlar

- İSO\İEC 17021:2015 “Uyğunluğun qiymətləndirilməsi. İdarəetmə sistemlərinin sertifikatlaşdırmasını və auditini keçirən orqanlara olan tələblər”.
- İSO 19011:2011 “İdarəetmə sisteminlərinin auditi üzrə rəhbəredici göstərişlər.”

# 3. Məsuliyyət

3.1. **Sertifikatlaşdırma Orqanının (SO) rəhbəri**:

- SO-nun fəaliyyəti zamanı qərəzsizliyi təmin etmək,
- Qərəzsizlik qrupunun və onun fəaliyyəti üçün tələb olunan şəraitin yaradılması.

**3.2.Qərəzsizlik qrupu**:

- Təyin olunmuş intervallarda SO-nun fəaliyyəti ilə bağlı qərəzsizliyin təhlilinin aparılması və nəticələrin sənədləşdirilməsi.
- SO-nun fəaliyyətində qərəzsizliyin təmin olunması və ya təmin olunmaması ilə bağlı qərarın qəbul edilməsi.

**3.3. SO-nın struktur bölmələri**:

- Sertifikatlaşdırmanın fəaliyyəti ilə bağlı bu prosedurda qoyulmuş tələblərin icrasını təmin etmək.

# 4. Qərəzsizlik

Qərəzsizlik Sertifikatlaşdırma Orqanı üçün əsas pinsiplərdən biri sayılır.

Etimada layiq olan sertifikatlaşdırmanı həyata keçirmək üçün sertifikatlaşdırma orqanı qərəzsiz kimi qəbul olunmalıdır.

Məlumdur ki, sertifikatlaşdırmaya görə ödəniş edən sifarişçi sertifikatlaşdırma orqanı üçün gəlir mənbəyidir və bu qərəzsizlik üçün potensial təhlükəyə səbəb ola bilər.

Etimadın əldə olunması və qorunması üçün sertifikatlaşdırma orqanı tərəfindən müəyyən edilən uyğunluq (və ya uyğunsuzluq) haqqında qəbul olunmuş qərarlar obyektiv dəlillərə (faktlara) əsaslanmalı və digər maraqların, həmçinin digər tərəflərin onun qərarlarına təsir göstərməməsi zəruridir.

Qərəzsizliyin pozulması təhlükəsi kimi aşağıdakı hallar qeyd oluna bilər:

**a) Şəxsi mənfəət**: insan və ya SO şəxsi maraqları naminə hərəkət etdikdə qərəzsizliyə təhlükə yaranır. Sertifikatlaşdırma zamanı maliyyə qərəzsizliyin təhlükəsi kimi ola bilər.

**b) İşçi və Sertifikatlaşdırma Orqanı öz şəxsi fəaliyyətini təhlil etdikdə**: Şəxs və ya SO öz fəaliyyətini təhlil etdikdə təhlükə yaranır. Sertifikatlaşdırma orqanı sifarişçi təşkilatın idarəetmə sisteminə məsləhət xidməti aparıbsa bu təşkilatda auditin aparılması öz fəaliyyətinin təhlili kimi təhlükə ola bilər.

**d) Yaxın münasibətlər ( və ya etimad ):** əgər işçi və ya SO audit olunan təşkilatın üzvləri ilə yaxın münasibətdə olarsa və ya audit dəlillərini axtarmaq əvəzinə digər şəxsə həddən artıq etimad göstərərsə, o zaman qərəzsizliyə real təhlükə yarana bilər.

**c) Hədə-qorxu**: işçi və ya Sertifikatlaşdırma Orqanı açıq və ya gizli şəkildə, məsələn, işdən azad olunmaq və ya nəzarət strukturuna şikayət kimi hədələmə hiss etdikdə qərəzsizliyə təhlükə yaranır.

## 5. Qərəzsizliyin idarə olunması

**5.1.**Sertifikalaşdırma orqanının ali rəhbərliyi idarəetmə sisteminin sertifikatlaşdırmasının qərəzsizliyinin təminatı ilə bağlı öhdəliyi qəbul etmiş və orqanın Keyfiyyət sahəsində siyasətində rəsmi bəyan etmişdir.

Sertifikatlaşdırma orqanı ictimaiyyət üçün açıq olan formada idarəetmə sisteminin sertifikatlaşdırma işlərinin yerinə yetirilməsi zamanı qərəzsizliyin vacibliyini başa düşdüyünü, maraqların toqquşmasını idarə etdiyini və idarəetmə sisteminin sertifikatlaşdırması ilə bağlı fəaliyyətin obyektivliyinə zəmanət verdiyini bəyan edir.

**“Azərbaycan Standartlaşdırma İnstitutu” publik hüquqi şəxsin İdarəetmə sistemlərinin sertifikatlaşdırılması orqanı “Azərbaycan Standartlaşdırma İnstitutu” publik hüquqi şəxsin standard.gov.az saytında sertifikatlaşdırma işlərinin aparılması qaydalarını müəyyən edən bütün prosedurları yerləşdirib**.

**5.2.**Sertifikatlaşdırma orqanı onun qarşılıqlı münasibətlərindən irəli gələn münaqişələri daxil etməklə sertifikatlaşdırmanın həyata keçirilməsi zamanı meydana çıxan maraqların mümkün münaqişələrini təyin etməyi, təhlil etməyi və sənədləşdirməyi öhdəsinə götürür. Qarşılıqlı münasibətlərin varlığı sertifikatlaşdırma orqanını məcburi qaydada maraqların münaqişəsinə cəlb etmir. Lakin, əgər qarşılıqlı münasibətlər qərəzsizliyin təmin olunması üçün təhlükə yaradırsa, o zaman sertifikatlaşdırma orqanı bu cür təhlükələri necə aradan qaldırdığını və ya minimal səviyyəyə endirilməsini sənədlər ilə təsdiq etməyi və nümayiş etdirməyi öhdəsinə götürür.

Bu informasiya 6-cı bənddə göstərilən Qərəzsizlik qrupu üçün əldə edilən olmalıdır.

Bu nümayiş həm sertifikatlaşdırma orqanının, həm digər şəxslərin, SO və ya təşkilatların fəaliyyətində maraqların toqquşması münaqişəsinin bütün mənbələrini aşkar etməlidir.

Qeyd: Sertifikatlaşdırma orqanının qərəzsizliyinin təmin olunması üçün təhlükələr yaradan aşağıda sadalanan qarşılıqlı münasibətlərdən asılı olaraq qaynaqlana bilər:

Mülkiyyət hüquqları, tabeçilik, idarəetmə, işçi heyəti, müştərək şəkildə istifadə olunan ehtiyatlar, maliyyə imkanları, müqavilələr, marketinqə və satışdan əldə olunan komissionların ödənilməsinə və ya yeni sifarişçilərin cəlb olunmasına görə təyin digər mükafatlandırmalara.

**5.3** Əgər qarşılıqlı münasibətlər qərəzsizliyin təmin olunması üçün yolverilməz təhlükə olursa (məsələn, sertifikatlaşdırmanın keçirilməsinə dair sifariş sertifikatlaşdırma orqanının törəmə şirkətindən daxil olur), o zaman setifikatlaşdırmadan imtina edilir. Qeyd -- Bax 5.2. dair qeyd.

**5.4** Sertifikatlaşdırma orqanı, idarəetmə sisteminin sertifikatlaşdırması ilə məşğul olan digər orqanı sertifikatlaşdırmamalıdır. Qeyd – Bax 5.2. dair qeyd.

**5.5** Sertifikatlaşdırma orqanı, eləcədə eyni hüquqi şəxsin istənilən hissəsi idarəetmə sistemləri ilə bağlı məsləhət işləri aparmamağı öhdəsinə götürür.Bu tələb həmçinin sertifikatlaşdırma orqanı kimi müəyyən olunan hökumət strukturuna qarşı da tətbiq olunur.

**5.6** Sertifikatlaşdırma orqanı, sertifikatlaşdırdıqları sifarişçilərin daxili auditlərini keçirməməyi və ya bunu təklif etməməyi öhdəsinə götürür.

Sertifikatlaşdırma orqanı, əgər daxili audit keçiribsə, onda daxili auditlərin başa çatmasından sonra iki il ərzində həmin təşkilatın idarəetmə sistemini sertifikatlaşdırmamalıdır.

Bu həmçinin sertifikatlaşdırma orqanı kimi təyin olunan hökumət orqanına qarşı tətbiq olunur.

**5.7** Əgər məsləhət verən təşkilat sifarişçiyə məsləhət vermişsə və ya daxili audit keçirmişsə və məsləhət verən təşkilatla sertifikatlaşdırma orqanı arasındakı qarşılıqlı münasibətlər sonuncunun qərəzsizliyiniin təmin olunması üçün yolverilməz təhlükə yaradırsa, idarəetmə sisteminin sertifikatlaşdırılması aparılmamalıdır.

Qeyd 1: Menecment sistemi ilə bağlı məsləhət xidmətinin başa çatması anından etibarən iki illik minimal dövrün varlığı qərəzsizliyin təminatı təhlükəsinin münasib səviyyəsinə kimi azalması üsullarından biri kimi çıxış edir.

**5.8** Sertifikatlaşdırma orqanı idarəetmə sistemi üzrə məsləhət xidməti aparan təşkilatlara auditlərin keçirilməsi hüququnu verməməlidir. Belə ki, sertifikatlaşdırma orqanının qərəzsizliyinin təmin olunması üçün yolverilməz təhlükə yaradır. (bax standart İSO\İEC 17021 : 2015 b. 7.5)

Bu qayda müqaviləyə cəlb olunan şəxslərə şamil olunmur. (bax standart İSO\İEC 17021 : 2015 b. 7.3) .

**5.9** Sertifikatlaşdırma orqanının fəaliyyəti idarəetmə sistemləri üzrə məsləhət xidməti ilə məşğul olan təşkilatın fəaliyyəti ilə əlaqəli olması formasında təqdim olunmamalıdır.

Sertifikatlaşdırma orqanı məsləhət xidməti aparan təşkilat tərəfindən sertifikatlaşdırmanın daha sadə, asan, sürətli və ya bu sertifikatlaşdırma orqanının cəlb olunması zamanı sertifikatlaşdırmanın ucuz olmasını bəyan edən və ya nəzərdə tutan istənilən yersiz bəyanatlarının qarşısını almaq üçün tədbirlər görməlidir.

Sertifikatlaşdırma orqanı müəyyən məsləhət xidməti aparan təşkilatın cəlb olunması zamanı daha sadə, yüngül, sürətli və ya bahalı olan sertifikatlaşdırmanı bəyan etməməli və ya nəzərdə tutmamalıdır.

**5.10** Maraqların münaqişəsinin olmamasını təmin etmək üçün idarəetmə sistemi üzrə məsləhət xidmətləri göstərən əməkdaşlar idarəetmə hüquqları daxilində fəaliyyət göstərən əməkdaşları da daxil etməklə sertifikatlaşdırma orqanı tərəfindən auditdə iştirak prosesinə və ya bu sifarişçinin məsləhət xidmətinin başa çatmasından sonrakı iki il ərzində konkret sifarişçinin sertifikatlaşdırılması ilə bağlı digər fəaliyyətə cəlb olunmamalıdır.

**5.11**Sertifikatlaşdırma orqanı digər şəxslərin, orqanların və ya təşkilatların fəaliyyətindən irəli gələn qərəzsizliyin təmin olunması üçün istənilən təhlükəyə qarşı münasibətdə cavab tədbiri görməlidir.

**5.12** Sertifikatlaşdırma orqanının personalı və kənardan cəlb edilən personal və ya sertifikatlaşdırma ilə bağlı fəaliyyətə təsir göstərən qurumlar qərəzsiz fəaliyyət göstərməli və onların qərəzsizliyini doğuran kommersiya, maliyyə və ya digər təzyiqə yol verilməməlidir.

**5.13** Sertifikatlaşdırma orqanı həm daxili, həm də kənardan cəlb edilən heyətdən, onları və ya sertifikatlaşdırma orqanını maraqların münaqişəsinə cəlb edə biləcək vəziyyətlər haqqında məlumatlandırmağı tələb etməlidir.

Sertifikatlaşdırma orqanı bu cür informasiyanı, qərəzsizliyin təmini üçün təhlükənin yaranmasını müəyyən edərkən giriş məlumatı kimi istifadə etməlidir.

Bu əməkdaşlar və ya onları işə qəbul edən təşkilatlar maraqlarının münaqişəsinin yoxluğunu nümayiş etdirməyənə qədər, sertifikatlaşdırma işlərinə cəlb olunmamalıdırlar. Qərəzsizliyin idarə olunması ilə bağlı bütün qeydlər aparılmalı və işlək vəziyyətdə saxlanılmalıdır.Qeydlərin saxlanma müddəti bir ildən az olmamalıdır.

**5.14**.Sertifikatlaşdırma Orqanı sertifikatlaşdırma fəaliyyəti ilə əlaqəli riskləri qiymətləndirməyə və sertifikatlaşdırma nəticəsində auditorlara, texniki ekspertlərə və sifarişçi təşkilata dəyə biləcək zərərləri ödəmək üçün maliyyə imkanlarına malik olmalıdır.

Sertifikatlaşdırma Orqanı qərəzsizliyin təmin olunması üçün maliyyə ehtiyatlarına malikdir və heç bir maliyyə, kommersiya və digər təzyiqlər sertifikatlaşdırmanın qərəzsiz aparılmasını qorxu altına ala bilməz.

# 6. Qərəzsizlik qrupu

6.1Qərəzsizlik qrupu sertifikatlaşdırma orqanı tərəfindən yaradılmışdır. Bax SO-nin təşkilatı strukturuna.

Qərəzsizlik qrupu SO-nın sertifikatlaşdırma sahəsində fəaliyyətinin qərəzsizliyini ildə bir dəfə təhlil etməli, riskləri qiymətləndirməli və müvafiq təkliflər hazırlamalıdır.

Rəhbərlik risklərin qəbul olunan səviyyədən yüksək olmamasını müəyyən etmək üçün onların təhlilini aparmalıdır.

Qərəzsizliyin təhlilinin nəticələri sərbəst formada qeydiyyata alınmalıdır. Protokolun bir nüsxəsi Sertifikatlaşdırma Orqanına təqdim olunmalıdır.

Qrup bütün tərəflərin maraqlarını təmsil edə bilməsə də, Sertifikatlaşdırma orqanı əsas maraqları təyin etməli və nəzərə almalıdır.

Bu cür maraqlar aşağıda adları göstərilən tərəflərin maraqlarından ibarət ola bilər:

- sertifikatlaşdırma orqanının işçi heyəti və sifarişçilərindən;
- idarəetmə sistemi sertifikatlaşdırılan sifarişçilərin istehlakçılarından;
- ticarət-sənaye assosiasiyalarının nümayəndələrindən;
- hökümət idarəetmə orqanlarının və ya digər hökümət xidmətlərinin nümayəndələrindən və yaxud istehlakçıların təşkilatlarını da daxil etməklə qeyri-hökümət təşkilatlarının nümayəndələrindən.

Sertifikatlaşdırma orqanı qərəzsizlik qrupunun fəal işləməsi və öz vəzifələrinin yerinə yetirilməsinin təmin edilməsi üçün aşağıdakılara imkan yaratmalıdır:

a) sertifikatlaşdırma orqanının fəaliyyətinin qərəzsizliyinə qarşı münasibətdə siyasətin işlənib hazırlanmasında iştirak etmək;

b) sertifikatlaşdırma orqanı tərəfindən istənilən tendensiyalara müqavimət göstərmək, eləcə də, kommersiya və ya digər mülahizələrə görə sertifikatlaşdırma ilə bağlı işlərin ardıcıl və obyektiv şəkildə yerinə yetirilməsinə mane olmamaq;

c)aşkarlıq və ictimaiyyət tərəfindən qəbul edilmə də daxil olmaqla sertifikatlaşdırmaya etimad ilə bağlı tövsiyyələr vermək:

d) ən azı hər il keçirilən audit proseslərinin və sertifikatlaşdırmanın təhlilini keçirmək və sertifikatlaşdırma orqanı tərəfindən qərarın qəbul olunması;

e) digər vəzifələr və tapşırıqlar da qrupun vəzifələrinə daxil edilə bilər. Bu o şərtlə baş verir ki, bu əlavə tapşırıqlar və ya vəzifələr qərəzsizliyin təminatı ilə bağlı əsas rolun yerinə yetirilməsinə mane olmasın.

**6.2** Qərəzsizlik qrupunun üzvlərinin tərkibi, istiqamətləri, vəzifələri, səlahiyyətləri bu prosedurda sertifikatlaşdırma orqanının ali rəhbərliyi tərəfindən rəsmi qaydada təsdiqlənmişdir.

Qərəzsizlik qrupu aşağıdakıları təmin etməlidir:

a) hər hansı bir marağın üstünlüyünün olmaması kimi maraqların balansının mövcudluğu (vahid marağı olması kimi nəzərdə tutulan sertifikatlaşdırma orqanının daxili personalı və ya kənardan cəlb edilən personalı qrupun tərkibində üstünlük təşkil etməməlidir ).

b) qrupun funksiyalarının yerinə yetirilməsi üçün zəruri olan bütün informasiyaya çıxış ( Bax b. 5.2 və 5.3 ).

c) əgər sertifikatlaşdırma orqanının ali rəhbərliyi qrupun tövsiyələrinə əməl etmirsə, o zaman qrup sərbəst şəkildə hərəkət hüququna malik olmalıdır (məsələn, hökumət orqanlarına, akkreditasiya orqanına, maraqlı tərəflərə məlumat verməlidir )

Qrup sərbəst şəkildə hərəkət edərək sifarişçiyə və sertifikatlaşdırma orqanına qarşı münasibətdə İSO\İEC 17021 standartının 8.4 bəndində şərh olunan məxfilik tələblərini nəzərə almalıdır.

6.3 SO-nun qərəzsiliyinin təhlili ilə bağlı bütün qeydləri qrup tərəfindən aparılmalıdır və işlək vəziyyətdə saxlanılmalıdır. Saxlanma müddəti bir ildən az olmamalıdır.

## 7. Sənədlərin saxlanılması

Qərəzsizliyin təmin edilməsi və onun idarə olunması üçün keçirilən təhlilin qeydləri Sertifikatlaşdırma orqanında 6 (altı) il saxlanılmalıdır.